Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun keyfiyyət sahəsində fəaliyyəti:

- Qida təhlükəsizliyi sahəsində standartların tələblərinə cavab verən keyfiyyətli xidmətlərin təmin edilməsi;
- İnstitutda qüvvədə olan idarəetmə sisteminin *ISO 9001:2015 "Keyfiyyətli idarəetmə sistemləri"* beynəlxalq standartın tələblərinə uyğun olaraq daim təkmilləşdirilməsi;
- İnstitutda biznes proseslərinin effektivliyinin artırılması və bunların nəticəsi kimi, onların və xidmətlərinin keyfiyyətinin yaxşılaşdırılması;
- Keyfiyyət sahəsində siyasətin daimi yararlılığının təhlili;
- İnstitutun fəaliyyətini əks etdirən maliyyə göstəriciləri sisteminin tətbiq edilməsi;
- İnstitutun bütün işçilərinin bilik səviyyələrinin və peşə ixtisaslarının fasiləsiz artırılması;
- İnstitutun hər bir əməkdaşının öz iş metodunun keyfiyyətinə və təkmilləşdirilməsinə məsuliyyətli yanaşması;
- Keyfiyyət sahəsində siyasətin İnstitutun məqsədləri ilə vəhdət təşkil etməsi;
- İnstitutun keyfiyyət sahəsində siyasəti barədə bütün əməkdaşların məlumatlandırılması;

Keyfiyyət sahəsində qida təhlükəsizliyi istiqamətində xidmətləri üzrə öhdəliklər:

- Xidmətlərin yaxşılaşdırılması, onların keyfiyyətinin artırılması, təkmilləşdirilməsi;
- Xidmətlərin tətbiq edilməsi və keyfiyyətinə nəzarət üsullarının inkişaf etdirilməsi;
- Qanunvericilikdə baş verən dəyişikliklərlə əlaqədar tələb olunan tədbirləri vaxtında həyata keçirmək və sənədləşdirmədə müvafiq düzəlişlər aparmaq;
- Xidmətlərin hazırlanmasında həm də biznes proseslərinin effektivliyinin və keyfiyyətinin artırılmasına kömək edən texniki yeniliklərdən və aparıcı texnologiyalardan istifadə edilməsi;
- Qida təhlükəsizliyi sahəsində mövcud və potensial ehtiyacların daim öyrənilməsi və təkmilləşdirilməsi.

Keyfiyyət sahəsində müştərilərimiz, partnyorlarımız və cəmiyyət qarşısında öhdəliklər:

- Qida təhlükəsizliyi sahəsində əhalinin, müştərilərin və partnyorlarımızın maarifləndirilməsi, ehtiyaclarının ciddi analiz edilməsi və həmin ehtiyaclara görə təklifinin təqdim edilməsi;
- Xidmətlərimizlə əlaqədar əhalinin, müştərilərin və partnyorlarımızın suallarına operativ cavab verilməsi, onların xidmətlərimizdən istifadə edə bilmələrinin təşkil edilməsi və yaranan problemlərin vaxtında həll edilməsi;
- Müştərilərimizə təklif etdiyimiz xidmətlərin müəyyən edilmiş tələblərə uyğun olmasının təmin edilməsi.